# Unudulmaz ictimai xadim

**Unudulmaz Rafiq Xələfovu yaxından-uzaqdan tanıyanlar bu nadir təbiətli, ciddi, kövrək Vətən oğlunu sonsuz sədaqətli, mehriban, işgüzar, prinsipial, bacarıqlı, savadlı, yurdsevər və s. bu kimi müsbət əlamətlərə malik mükəmməl bir dövlət xadimi və ictimai xadim kimi tanıyırdı.**

**Özünün şəxsi keyfiyyətlərinə görə, xüsusilə bitib-tükənməz yaradıcı enerjisi sayəsində Rafiq müəllim "Azərdənizneftikinti" Tikinti-Quraşdırma İdarəsinə rəhbərlikdən başlayaraq nazir, Baş nazirin müavini kimi çox məsul bir vəzifə yolunu şərəf və ləyaqətlə keçə bilmişdir.**

Rafiq Xələfovun yaradıcı istedadı Azərbaycan Respublikasının Avtomobil Yollarının Tikintisi və İstismarı naziri işlədiyi illərdə özünü daha parlaq şəkildə büruzə verdi desək, qəti səhv etmərik.

Hələ o illərdə Bakı-Astara yolu abad hala salındı, Kür və Araz çayları üzərindən yeni körpülər salındı, Ağdamda, Şəmkirdə, Qobustanda, Ceyranbatanda "Yoltexnika" təcrübə-sınaq zavodları tikilib istifadəyə verildi.

Onun şəxsi təşəbbüsü ilə demək olar ki, respublikamızda yol tikinti-quraşdırma işlərində səriştəsi ilə seçilən əzəmətli bir yoltikənlər ordusu formalaşmışdır ki, bu yaradıcı kollektiv respublikamızın sosial-iqtisadi tərəqqisinə xeyli töhfə vermiş, Qarabağda, Naxçıvanda yollar abadlaşdırılmışdır. Yaddan çıxmış, unudulub "kölgədə" qalmış kənd yollarının bərbad vəziyyəti də Rafiq müəllimi həmişə düşündürmüş, onu narahat etmişdir, imkan yarandıqca belə yollar da abadlaşdırılmış, səliqə-sahmana salınmışdır.

Bir məsələni də qeyd etməyi vacib bilirəm ki, yol tikməyə, küçə salmağa böyük istəyi Rafiq müəllimin heç zaman yadından çıxmamışdır, həmişə bir gözü yollara baxmışdır, desəm düz olar.

Azərbaycan Respublikasının "Xalq üçün mallar" Dövlət Konserni isə Rafiq müəllimin əsl qurub-yaratmaq, inkişaf, tərəqqi, qayğı və təşəbbüs meydanına çevrildi. Rafiq Xələfov əsasən yüngül sənaye sahəsini əhatə edən çox nəhəng bir kollektivə rəhbərliyə gətirildi və unudulmaz rəhbərimiz Heydər Əliyev Rafiq müəllimi yaxından tanıdığına, onun təşkilatçılıq, təşəbbüskarlıq bacarığına, geniş dünyagörüşünə, sədaqətinə, milli təəssübkeşliyinə, bütövlüyünə inandığına görə ona belə bir vacib sahəni tapşırdı və qabaqcadan qeyd edim ki, Rafiq müəllim bu işin öhdəsindən bacarıqla və ləyaqətlə gələ bildi.

Yetmiş min nəfərdən çox adam bilavasitə Rafiq Xələfovun rəhbərliyi altında, əslində onunla çiyin-çiyinə işlədi, yaratdı, qurdu. On ildən çox bir müddətdə respublikamızda avtomobil yollarının tikintisinə və istismarına bacarıqla başçılıq etmiş Rafiq Xələfovun tamamilə yeni bir sənaye sahəsinə rəhbərliyə keçməsi onu qəti narahat etmədi - öyrəndi, tanıdı, işlədi, əziyyət çəkdi, böyük bir kollektivin istəklisi kimi seçilib sayıldı.

Bir vacib cəhəti də qeyd edim ki, Rafiq müəllimlə kütləvi informasiya vasitələri işçilərinin sıx münasibəti heyranedici səviyyəyə qalxmışdı. Respublikamızın nəşr olunan "Azərbaycan", "Qarabağ", "Şəkinin səsi", "İpəkçi", "Azərbaycan yolları" və s. qəzetləri Rafiq müəllimlə necə deyərlər, asan dil tapırdılar, açıq söhbət edirdilər, hamını düşündürən məsələlərdən dönə-dönə danışır, fikir mübadiləsi aparırdılar.

Rafiq müəllimin "Azərbaycan" qəzetinin 29-30 sentyabr 1994-cü il tarixli nömrələrində dərc edilmiş "Azərbaycanı ağır ictimai-siyasi, iqtisadi və mənəvi bəladan qurtarmaq yolları çoxdur" adlı müsahibəsi geniş əks-səda vermişdir.

O, Bakıda və Moskvada mükəmməl ali təhsil almış, Suriya Ərəb Respublikasında, Hindistanda, Yaponiyada, Bolqarıstanda və digər yerlərdə bir azərbaycanlı mütəxəssis kimi, təşkilatçı şəxs kimi fəaliyyət göstərərək dost ölkələrdən köməyini əsirgəməmişdir və həmin yerlərdən xoş xatirələrlə geri dönmüşdür.

Yuxarıda qeyd etdiyimiz kimi, "Azərbaycan" qəzetinin həmin nömrəsində Rafiq müəllimin dediyi elə fikirlər var ki, onlar həmişə müasirdir, həmişə yenidir.

Yazının elə bu yerində zəngin şəxsiyyət olmuş Rafiq müəllimin həmin müsahibəsindən bəzi misallar çəkməyi məqsədəuyğun bildim:

"Möhtərəm Prezidentimiz Heydər Əliyev iqtisadiyyat məsələlərindən danışarkən Azərbaycan iqtisadiyyatının artıq bazar iqtisadiyyatı yolu ilə getməsini strateji yol kimi bütün iqtisadiyyatımızın qarşısında qoymuşdur. Biz bu yolun düzgünlüyünə nəinki inanırıq və hər gün bu məqsədə nail olmaq üçün öz sahəmizdə əlimizdən gələni edirik. Ancaq bu prosesin o qədər asan olmamasını da qeyd etməliyəm. Bu proses illər tələb edəcək. Bu, bizi qorxutmamalıdır".

Yaxud: "Qarabağı qorumaq olardımı?" sualına cavab verərkən:

"Bəli, Qarabağı işğalçılardan qorumaq olardı. Əgər vaxtında lazımi tədbirlər görülsəydi...

Yəqin ki, mənim bu illərdə çəkdiyim əzab izsiz qalmayıb. Bu günə qədər heç kimə pislik etməmişəm. Əlimdən gələn iş yaxşılıq olub. Mənə pislik edənlərdən xahişim odur ki, pisliklə məşğul olmasınlar. Başa düşsünlər ki, pisliyin heç kimə xeyri yoxdur. İnsan bir ömür yaşayır, hələ heç kim iki ömür yaşamayıb. Yaşamayacaq da... Bizim taleyimiz alnımıza yazılıb. Biz gərək elə yaşayaq, elə işlər görək ki, son mənzilə gedəndə "Allah rəhmət eləsin", - desinlər.

Əlbəttə, bütün müharibələr sülhlə qurtarmalıdır. Ərazi bütövlüyümüz qorunacaq, torpaqlarımız düşmən tapdağından xilas olacaq, millətimiz şən və firavan günlər yaşayacaq".

"Azərbaycan" qəzeti müxbirinin "Arzularınız?" sualına cavab verərkən Rafiq müəllim müharibəyə son qoyulmasını, iqtisadiyyatımızın tərəqqi yoluna düşməsini arzulayır. Sonra müstəqilliyimizin qorunmasına böyük əhəmiyyət verərək, hər evdə toy-bayram olmasını istəyir, necə deyərlər, kövrək bir not üstündə sakitcə qayıdır: "əgər ömür vəfa etsə, mən də oğul toyu görmək istərdim...".

Əslində Qarabağ müharibəsi Rafiq müəllimin neçə-neçə istəyini alt-üst etmişdi, onun qaşqabağı açılmırdı. Xocavənd, Xocalı faciələri, Şuşanın, Ağdamın, Laçının... Ermənistan ordusu tərəfindən işğalı onu yandırıb-yaxırdı.

Yaxın dostum Ramiz Məmmədzadə (Nazirlər Kabineti Aparatının sabiq əməkdaşı) danışır ki, Qarabağ ağsaqqallarından birinin yas məclisinə Baş nazirin müavinləri Rafiq Xələfov, Elçin Əfəndiyev və mən birlikdə getmişdik. Yas yerində birdən Rafiq müəllim məclisdə oturanları mənə göstərib astaca dedi: "Ay Ramiz, çön bir arxa tərəfində oturanlara bax, gör Ağdamın cavanları nə yaman tez qocaldılar".

Rafiq müəllim "Xalq üçün mallar" Dövlət Konserninin İdarə Heyətinin sədri işlədiyi illərdə Şəki ipəkçiləri ilə daima sıx əlaqə saxlayır, onların güzəranı və həyat şəraiti ilə həmişə maraqlanırdı.

Şəkidə nəşr edilən "Şəkinin səsi" və "İpəkçi" qəzetlərini Rafiq müəllim alır, oxuyur və qəzetə münasibətini bildirirdi.

Heç də təsadüfi deyildir ki, "Qarabağ" qəzetinin 26 avqust 1994-cü il tarixli nömrəsində dərc edilmiş "Sözündə, əməlində bütöv, ardıcıl olmayanlar faciələrə məhkumdurlar" adlı müsahibəsi "İpəkçi" və "Şəkinin səsi" qəzetlərində də dərc olunaraq böyük əks-səda doğurmuş, bütün Şəki camaatı tərəfindən rəğbətlə qarşılanmışdır.

Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş Şəki "İpəkçi" şirkətinin fəhləsi Rüstəm Səmədovun xatirəsinin əbədiləşdirilməsi, şəhidin ailəsinə maddi yardım göstərilməsi üçün Rafiq müəllim konkret tədbirlər görmüş, əmrlər imzalamışdır.

Onun təşəbbüsü ilə Rüstəm Səmədovun yaşadığı binanın qarşısında "Rüstəm bulağı" inşa edilmişdir. Şəhid anası Kamilə



xanım Səmədovaya Rafiq Xələfovun adından göndərilmiş teleqramda deyilirdi: "Hörmətli Kamilə xanım! Azərbaycan Respublikası "Xalq üçün mallar" Dövlət Konserninin rəhbərliyi, İdarə Heyəti adından, şəxsən öz adımdan erməni işğalçıları ilə döyüşdə şəhid olmuş Rüstəm kimi igid oğul böyüdüb boya-başa çatdırdığınıza görə Sizə minnətdarlığımı bildirirəm. Rüstəmin əziz xatirəsi önündə ehtiramla baş əyirəm!".

Rafiq Xələfov geniş ictimaiyyətçi idi, tanışlıq, dostluq, yoldaşlıq əlaqələrinin sayı-hesabı yox idi.

İki çağırış Azərbaycan Parlamentinin üzvü olmuşdu.

Ədəbiyyat, mədəniyyət nümayəndələrinə Rafiq müəllimin xüsusi, isti bir münasibəti vardı. Xalq şairi Xəlil Rza Ulutürk, əməkdar incəsənət xadimi, şair Rəfiq Zəka Xəndan onun ən yaxın sirdaşlarından idi.

O, dostsuz, ünsiyyətsiz darıxırdı, həmişə dostların arasında olardı, onlarla hər görüşdən zövq alardı.

Özü də şeirlə arası yaxşıydı. Şeir yazırdı, nadir hallarda oxuyurdu. Hər şeyin yerini bilən şəxsiyyət idi.

Heç 60 il yaşamadı, əli bu günlərə çatmadı. Zalım fələk aldı onu bizim əlimizdən, aldı apardı... Neçə-neçə arzu-xəyalı yarımçıq qaldı.

Bir anlığa təsəvvür edin ki, Rafiq müəllim bu günlərdə 80 yaşında qarşımıza çıxır. Gümüşü saçlar, mehriban baxışlar, kövrək bir təbəssüm, mərdanə bir görkəm, əyilməz bir qamət, sinəsi altında göyərçin bir ürək Maşallah, illər keçib, nəsillər dəyişib, qızlar, oğlanlar - doğmalar böyüyüb, həyat öz axarında... Ömür-gün yoldaşınız Rəfiqə xanım sonralar akademik oldu, indi əbədi dünyasına qovuşub. Bir də istəkli oğlunuz Rauf general olub, çiçək qızınız Fəxriyyə xanımı bütün ölkə tanıyır, Sevinc öz yerində... gül balalar, nəvələr...

Siz isə həmişə Sizi istəyənlərin yanındasınız! Unudulmaz, doğma Rafiq müəllim.

**Dilafət HACIYEV.**